Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# MEDİADA İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

**• 16 – 22 sentyabr 2024-cü il •**

## “Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət” işçi qrupunun fəaliyyəti

**20.09.2024**

**report.az**

### Azərbaycanda ESG standartları üzrə vahid rəqəmsal platformanın konsepsiyasının təqdimatı keçirilib




Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) rəhbərlik etdiyi “Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət” işçi qrupunun “Ekoloji, sosial və korporativ idarəetmə (ESG) standartları” üzrə altqrupunun fəaliyyəti çərçivəsində “ESG üzrə vahid rəqəmsal platforma” konsepsiyasının təqdimatı keçirilib.

"Report"un məlumatına görə, “Bakı KOB evi”ndə təşkil olunmuş tədbirdə altqrupa üzv olan dövlət qurumlarının, yerli və beynəlxalq özəl şirkət və təşkilatların nümayəndələri, eləcə də digər maraqlı tərəflərin məsul şəxsləri iştirak ediblər.

Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev ESG üzrə vahid rəqəmsal platformanın yaradılması zərurəti və əhəmiyyəti barədə fikirlərini bölüşüb, bu platformanın müvafiq sahənin fəaliyyətinin əlaqələndirilməsində və ESG üzrə məlumatlandırıcı resursların idarəedilməsində mühüm rol oynayacağını qeyd edib.

“Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 23.02.2024-cü il tarixində təsdiq olunub.

KOBİA-nın İdarə Heyəti sədrinin I müavini, ESG üzrə alt qrupun rəhbəri Natiq Həsənov isə ESG platformasının ətraf mühit və dayanıqlı inkişaf məsələlərinə, beynəlxalq reytinqlərdə ekoloji performansla bağlı göstəricilərə müsbət töhfə verəcəyini bildirib.
Sonra BMT-nin Azərbaycandakı nümayəndəliyində tərəfdaşlıq və inkişaf məsələləri üzrə müşaviri Ülviyyə Əkbərova ESG üzrə vahid rəqəmsal platforma konsepsiyasının təqdimatı ilə çıxış edib. Beynəlxalq Maliyyə Korporasiyasının ESG üzrə beynəlxalq eksperti Boris Janjalianı isə müvafiq sahədə beynəlxalq təcrübə barədə məlumat verib.
Tədbirdə ESG üzrə vahid rəqəmsal platformanın yaradılmasından irəli gələn məsələlər, o cümlədən konsepsiyanın layihə icra formatı müzakirə edilib, ESG üzrə beynəlxalq ekspertlərin təklif və tövsiyələri dinlənilib, iştirakçıların sualları cavablandırılıb.
Tədbir tematik sahələr üzrə müzakirələrlə davam edib və tədbirin sonunda tematik sahələr üzrə yol xəritələri və icra layihələri razılaşdırlaraq qəbul edilib.

**Mənbə:**

https://report.az/biznes-xeberleri/azerbaycanda-esg-standartlari-uzre-vahid-reqemsal-platformanin-konsepsiyasinin-teqdimati-kecirilib/

**Digər saytlar və portallar**

“Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 23.02.2024-cü il tarixində təsdiq olunub.

1. https://azertag.az/xeber/esg_uzre_vahid_reqemsal_platformanin_konsepsiyasinin_teqdimati_kechirilib-3190538
2. https://apa.az/sahibkarliq/esg-uzre-vahid-reqemsal-platforma-konsepsiyasinin-teqdimati-kecirilib-867383
3. https://sesqazeti.az/news/social/1190330.html
4. https://sia.az/az/news/social/1190295.html
5. https://azertag.az/xeber/esg_uzre_vahid_reqemsal_platformanin_konsepsiyasinin_teqdimati_kechirilir-3189782
6. https://az.trend.az/business/economy/3947504.html
7. https://ikisahil.az/post/544202
8. https://xeberler.az/new/details/32462.htm
9. https://www.azerbaycan24.com/en/azerbaijan-hosts-presentation-on-unified-digital-platform-for-esg-standards/
10. https://report.az/en/business/azerbaijan-hosts-presentation-on-unified-digital-platform-for-esg-standards/#:~:text=Ulviyya%20Akbarova%2C%20Partnerships%20Officer%20at,best%20practices%20in%20the%20field.
11. https://en.trend.az/azerbaijan/business/3947567.html

12. https://caliber.az/en/post/azerbaijan-s-new-digital-platform-to-enhance-environmental-governance-standards
13. https://turkic.world/en/articles/economy/282429

“Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 23.02.2024-cü il tarixində təsdiq olunub.

**report.az**

## KOBİA milli ESG standartlarının tətbiqi üçün layihə hazırlayıb

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) milli ekoloji, sosial və korporativ idarəetmə (ESG) standartlarının tətbiqi üçün müvafiq layihə hazırlayıb və sənəd razılaşdırma mərhələsindədir.
"Report" xəbər verir ki, bunu Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın katibliyinin rəhbəri Vüsal Şıxəliyev ESG üzrə vahid rəqəmsal platforma konsepsiyasının təqdimatında bildirib. "Milli ESG standartlarına beynəlxalq tələblərin inteqrasiyasını və sinxorinizasiyasını qarşımıza hədəf olaraq qoymuşuq", - deyə o qeyd edib.

**Mənbə:**
https://report.az/biznes-xeberleri/azerbaycanda-esg-standartlari-uzre-vahid-reqemsal-platformanin-konsepsiyasinin-teqdimati-kecirilib/

**Digər saytlar və portallar**

1. https://apa.az/sahibkarliq/azerbaycanda-esg-sahesi-uzre-milli-standartlar-hazirlanib-867366
2. https://ikisahil.az/post/544169
3. https://missiya.az/80448-kobia-milli-esg-standartlarinin-tetbiqi-ucun-layihe-hazirlayib.html
4. https://azinfo.az/iqtisadiyyat-xeberleri/sahibkarliq/10830-azerbaycanda-esg-sahesi-uzre-milli-standartlar-hazirlanib.html
5. https://report.az/ru/biznes/kobia-podgotovila-proekt-po-vnedreniyu-nacionalnyh-esg-standartov/
6. https://www.azernews.az/business/231538.html
7. https://report.az/en/business/kobia-develops-project-for-implementation-of-national-esg-standards/
8. https://en.trend.az/business/economy/3947502.html
9. https://azeritimes.com/2024/09/20/kobia-develops-project-for-implementation-of-national-esg-standards/#google_vignette

10. https://menafn.com/1108696407/KOBIA-Develops-Project-For-National-ESG-Standards-Implementation
11. https://www.today.az/news/business/252899.html

**“Beynəlxalq ticarət” işçi qrupunun fəaliyyəti**

**19.09.2024**

**azertag.com**

## “Beynəlxalq ticarət” işçi qrupunun növbəti iclası keçirilib



Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Beynəlxalq ticarət” İşçi qrupunun növbəti iclası keçirilib.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, işçi qrupun rəhbəri, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri Vüsal Şıxəliyev və Sərhəddə ticarət üzrə dövlət xidmətlərinin səmərəliliyinin artırılması altqrupunun rəhbəri, Dövlət Gömrük Komitəsinin sədr müavini Natiq Şirinov, aidiyyəti dövlət qurumlarının və özəl sektor nümayəndələrinin iştirakı ilə keçirilən iclasda cari il ərzində görülmüş işlərə dair müzakirələr aparılıb.

Müzakirələr çərçivəsində Türk Dövlətləri Təşkilatının Ticarətin Asanlaşdırılması üzrə Strategiya sənədi ilə bağlı Azərbaycandan müvafiq əlaqələndirici qurum olaraq Beynəlxalq ticarət işçi qrupunun fəaliyyətinə dair 2024-cü il ərzində görülən işlər diqqətə çatdırılıb. Bildirilib ki, ötən dövr ərzində təşkilata üzv ölkələrlə əlaqələrin inkişafı üçün birgə investisiya fondlarının yaradılması, müqavilə-hüquq bazasının genişləndirilməsi, ticarət dövriyyəsinin və iqtisadi aktivliyin yüksəldilməsi üçün tədbirlər davam etdirilib.

İclasda beynəlxalq ticarətin asanlaşdırılması üçün dövlət xidmətlərinin keyfiyyətinə dair qanunvericilik tənzimləməsi, məlumatların paylaşılması və ictimai məsləhətləşmələr, həmçinin

“Beynəlxalq ticarət” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 19.04.2024-cü il tarixində təsdiq olunub

idxal və ixrac əməliyyatları üzrə vaxt və xərclərin səmərəliliyinin qiymətləndirilməsinə dair monitorinqin nəticələri ilə bağlı təqdimatlar dinlənilib.

Daha sonra işçi qrupun fəaliyyətinə dair Dünya Bankı Qrupunun “B-Ready” layihəsinin hesabatının “Beynəlxalq ticarət” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair cari il üzrə Yol xəritəsinə daxil edilən tapşırıqların icra vəziyyəti barədə müzakirələr aparılıb və müvafiq tövsiyələr verilib.

**Mənbə:**

https://azertag.az/xeber/beynelxalq_ticaret_ischi_qrupunun_novbeti_iclasi_kechirilib-3188410

**Digər saytlar və portallar**

1. https://azvision.az/news/367348
2. https://operativmedia.az/post/64221/beynelxalq-ticaret-isci-qrupunun-novbeti-iclasi-kecirilib
3. https://www.azerbaijan-news.az/az/posts/detail/beynelxalq-ticaret-isci-qrupunun-novbeti-iclasi-kecirilib-1726768702/338578
4. https://gdp.az/nazir-muavini-beyn-lxalq-ticar-t-indikatoru-uzr-t-kmill-sm-l-rin-aparilmasi-istiqam-tind-gorulmus-isl-r-bar-d-muzakir-l-r-apardiq/
5. https://newscenter.az/2024/09/19/beynelxalq-ticaret-isci-qrupunun-novbeti-iclasi-kecirilib.html
6. https://www.bayraqdar.info/2024/09/19/beyn%c9%99lxalq-ticar%c9%99t-isci-qrupunun-novb%c9%99ti-iclasi/
7. https://bbn.az/beyn%c9%99lxalq-ticar%c9%99t-isci-qrupunun-novb%c9%99ti-iclasi-kecirilib/

“Beynəlxalq ticarət” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 19.04.2024-cü il tarixində təsdiq olunub

**Birləşmiş Millətlər Təşkilatının "Elektron Hökumətin İnkişafı İndeksi" üzrə ölkəmizin uğuru**

**18.09.2024**

**xeberler.az**

**Azərbaycan elektron hökumətin inkişafı üzrə "Çox Yüksək EGDI" kateqoriyasına yüksəlib**

Azərbaycan elektron hökumətin inkişafında əhəmiyyətli irəliləyiş əldə edərək Birləşmiş Millətlər Təşkilatının "Elektron Hökumətin İnkişafı İndeksi"(E-Government Development Index-EGDI) üzrə dünyanın qabaqcıl ölkələri sırasında yerini möhkəmləndirib. Hesabatda ölkəmiz 2022-ci illə müqayisədə bu il 9 pillə irəliləyərək 193 ölkə arasında 74-cü yerdə qərarlaşıb. Bununla da Azərbaycan ilk dəfə indeksin ən yüksək kateqoriyası hesab edilən "Çox Yüksək EGDI" ("Very High EGDI) qrupuna daxil olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi təhlil şöbəsinin müdiri Günay Quliyeva bildirib ki, "Elektron Hökumətin İnkişafı İndeksi" (EGDI) ölkələrin telekommunikasiya infrastrukturu, insan kapitalı və onlayn xidmətlər üzrə inkişafını ölçən kompozit indeksdir. 2024-cü il araşdırması ölkənin süni intellektin (AI) və rəqəmsal hökumətin dayanıqlı inkişaf hədəflərinə çatmaqda oynadığı rolu da vurğulayır.

Günay Quliyevanın sözlərinə görə, dünya üzrə elektron hökumət və rəqəmsal dövlət xidmətlərinin inkişafını qiymətləndirən hesabatda Azərbaycan, Bruney-Darüssalam və Özbəkistan kimi ölkələrlə birlikdə elektron hökumət infrastrukturunda əhəmiyyətli irəliləyişlərə görə xüsusi vurğulanır. Qeyd olunur ki, Azərbaycan həm Telekommunikasiya İnfrastrukturu İndeksi (TII), həm də ümumi Elektron Hökumət İnkişafı İndeksi (EGDI) üzrə çox yüksək göstəricilərə malikdir və bu, ölkənin rəqəmsal transformasiya sahəsində liderliyini daha da gücləndirir.

Araşdırmada həmçinin qeyd olunur ki, Azərbaycan süni intellekt (AI) üzrə milli strategiya üzərində fəal şəkildə işləyir və bu, ağıllı şəhərlər və qabaqcıl texnoloji infrastrukturun yaradılmasına yönəlib. Bu strategiya ictimai xidmətlərin daha da təkmilləşdirilməsinə və şəhər idarəetməsinin inkişafına kömək edəcək.

İİTKM-in şöbə müdiri vurğulayıb ki, quru ilə əhatə olunmuş inkişaf etməkdə olan ölkə (LLDC) kimi, Azərbaycanın bu

BMT-nin Elektron Hökumətin İnkişaf İndeksi hər iki ildən bir açıqlanır və ölkələrin rəqəmsal hökumətin inkişafı üzrə göstəricilərini əks etdirir. Bu ilki hesabatda yer alan göstəricilər 2023-cü ilin may ayına qədər olan vəziyyəti əhatə edir.

sahədə irəliləyişi xüsusilə diqqətəlayiqdir. Azərbaycan digər ölkələrlə birlikdə LLDC-lərin çox yüksək EGDI qrupunda təmsil olunma faizini 2022-ci ildəki 3%-dən 2024-cü ildə 19%-ə qaldırmağa nail olub. Bu irəliləyişin arxasında Azərbaycanın rəqəmsallaşma sahəsində apardığı genişmiqyaslı islahatlar və strateji addımlar dayanır.

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində yaradılmış aidiyyatı işçi qrupları bu prosesin idarə olunmasında mühüm rol oynayır. Bu qruplar ölkədə rəqəmsal hökumət və rəqəmsal biznes mühitinin təkmilləşdirilməsi, həmçinin beynəlxalq reytinqlərin yüksəldilməsi istiqamətində əhəmiyyətli töhfələr verir. Onların fəaliyyəti nəticəsində Azərbaycan beynəlxalq rəqəmsal inkişaf reytinqlərində öz mövqeyini gücləndirir və rəqəmsal innovasiyalar sahəsində liderlik edir.**

Hesabatda həmçinin ölkəmiz üçün onlayn xidmətlərin təkmilləşdirilməsi, insan kapitalının inkişafı, süni intellekt (AI) və digər yeni texnologiyaların tətbiqi ilə rəqəmsal inkişafın daha da sürətləndirilməsi istiqamətində tövsiyələr də yer alıb. Günay Quliyeva əlavə edib ki, BMT-nin tədqiqatı rəqəmsal transformasiyanı iqtisadi inkişaf, dayanıqlı inkişaf və ictimai xidmətlərin yaxşılaşdırılmasında əsas hərəkətverici qüvvə kimi qəbul etdiyini vurğulayır. Bu isə öz növbəsində ölkənin rəqəmsal idarəetmə və innovasiya sahəsində regional lider mövqeyini daha da gücləndirmək strategiyasına uyğundur.

**Mənbə:**

https://xeberler.az/new/details/32451.htm

**Digər saytlar və portallar**

1. https://bbn.az/az%C9%99rbaycan-elektron-hokum%C9%99tin-inkisafi-uzr%C9%99-cox-yuks%C9%99k-egdi-kateqoriyasina-yuks%C9%99lib/
2. https://avtor.az/azerbaycanin-reqemsal-hokumet-inkisafinda-tarixi-naliyyeti
3. https://redaksiya.az/azerbaycanin-reqemsal-hokumet-inkisafinda-tarixi-naliyyeti

BMT-nin Elektron Hökumətin İnkişaf İndeksi hər iki ildən bir açıqlanır və ölkələrin rəqəmsal hökumətin inkişafı üzrə göstəricilərini əks etdirir. Bu ilki hesabatda yer alan göstəricilər 2023-cü ilin may ayına qədər olan vəziyyəti əhatə edir.

## “Biznesə daxilolma” işçi qrupunun fəaliyyəti

**17.09.2024**

report.az

**Azərbaycanda kommersiya qurumlarının qeydiyyatı istiqamətində islahatlar və rəqəmsal yeniliklər - TƏHLİL**

Dünya iqtisadiyyatı qlobal təsirlərə qarşı dayanıqlılığı artırmaq, innovativ biznes sahələrini inkişaf etdirmək və biznesə başlamaq üçün daha əlverişli şəraiti təmin etmək üçün yeni çağırışlarla qarşılaşır, ortaq rifahın artırılması və biznes sahəsində vəziyyətin təkmilləşdirilməsi üçün müxtəlif alətlər yaradılır. Bir neçə il əvvəl Dünya Bankı Qrupu bu sahədə ölkələrdəki vəziyyətin araşdırılması üçün “Doing Business” qiymətləndirmə mexanizmindən istifadə edirdi. 2021-ci ilin sentyabrında ləğv edilmiş bu hesabatın əvəzinə Dünya Bankı Qrupu yeni hesabatlılıq sistemi – Business Ready (B-READY) – hazırlayıb.
Dünya Bankı Qrupunun “Business Ready” layihəsi üzrə Azərbaycanın reytinqini artırmaq Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində fəaliyyət göstərən “Biznesə daxilolma” işçi qrupunun başlıca məqsədlərindəndir. Qeyd edək ki, biznesin qeydiyyatı prosesi ölkəmizdə davamlı islahatlar çərçivəsində sadələşdirilib və bu göstərici üzrə Azərbaycan dünyada olan ən yaxşı təcrübələrdən birinə malikdir. Buna baxmayaraq, bu sahədə həyata keçirilən işlər biznes mühitinin qlobal tələblərinə uyğun olaraq intensivləşdirilir və qeydiyyat prosedurları təkmilləşdirilir. Bu barədə “Report”a İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) rəis müavini, “Biznesə daxilolma” işçi qrupunun rəhbəri Samirə Musayeva bildirib. Bu məqsədlə bir sıra təşəbbüslər və yeniliklər həyata keçirilib.

**Məhdud məsuliyyətli cəmiyyətlər üçün elektron xidmətlər genişləndirilib**

S.Musayevanın sözlərinə görə, “Biznesə daxilolma” sahəsində həyata keçirilmiş 2022-2023-cü illər üzrə Yol Xəritəsi çərçivəsində kommersiya hüquqi şəxsin onlayn qeydiyyatı zamanı “SİMA” rəqəmsal imzanın tətbiqi ilə bağlı texniki imkanların yaradılması kimi innovativ alət tətbiq olunub, qeydiyyat prosesində sanksiya tətbiq edilməli olan şəxslərin nəzərə alınması və kommersiya hüquqi şəxsin rəhbərinin səlahiyyət müddəti bitdikdə elektron kabinetdən istifadəsinin məhdudlaşdırılması kimi tədbirlər görülüb.

“Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub

Bundan başqa, rübdə bir dəfə məlumat dəyişikliyinin qeydiyyata alınması üçün müraciətlərin edilməsinin zəruriliyinə dair məlumat xarakterli bildirişin kommersiya qurumlarının elektron kabinetinə göndərilməsi xidməti aktivləşdirilib. Həmçinin, lisenziya və ya icazə tələb olunan fəaliyyət növləri seçildikdə, kommersiya hüquqi şəxslərin elektron dövlət qeydiyyatı prosesi başa çatdıqdan sonra "Lisenziyalar və icazələr" portalına keçid imkanının yaradılması da təmin edilib. Bütün bunlar biznes qurmaq istəyənlər üçün lazım olan qaydaların mərhələlərinin, prosedurların və vaxt itkisinin əhəmiyyətli şəkildə azalmasına yol açıb, DVX-nın rəis müavini vurğulayıb.

**Yerli və xarici investisiyalı MMC-lərin elektron dövlət qeydiyyatı prosedurları eyniləşdirilir**

İşçi qrupunun rəhbəri xatırladıb ki, bir müddət əvvəl kommersiya qurumlarının dövlət qeydiyyatı sahəsində qüvvədə olan qanunvericiliyin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, xarici və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı prosedurlarının eyniləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi aktiv müzakirə edilirdi. Biznesin qeydiyyatının sadələşdirilməsi və qeyd olunan islahatların həyata keçirilməsi məqsədilə "Biznesə daxilolma" işçi qrupunun təşəbbüsü ilə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda, Əmək, Mülki və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələri hazırlanaraq Milli Məclisdə qəbul edilib və dövlət başçısı tərəfindən 2024-cü il iyulun 8-də təsdiqlənib.
Yenilənmiş qanunvericiliyə əsasən, yerli və xarici investisiyalı MMC-lərin elektron dövlət qeydiyyatı prosedurları eyniləşdirilib. Bu yenilik ölkədə xarici subyektlər üçün elektron qeydiyyat xidmətini tamamilə əlçatan etməklə biznesə başlama prosesini asanlaşdırıb. "Ölkəmizin investisiya cəlbediciliyinin artırılmasında mühüm əhəmiyyət kəsb edən bu addımdan irəli gələn texniki şərtlərin də yerinə yetirilməsi davam edir", - S.Musayeva əlavə edib.

**Onlayn xidmətlərin genişləndirilməsi sahəsində görüləcək işlər**

Onun sözlərinə görə, biznesin qeydiyyatının təkmilləşdirilməsi sahəsində bir çox işlər görülsə də bu proses daimi olaraq müasir tələblərə uyğunlaşdırılır.
S.Musayeva vurğulayıb ki, nəzərdə tutulan addımlara qeydiyyata qədər və qeydiyyatdan sonrakı prosesdə iştirak edən dövlət orqanlarının məlumat bazalarının əlaqələndirilməsinin əhatə dairəsinin genişləndirilməsi daxildir.

"Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub

"Üstəlik, benefisiar mülkiyyətçinin reyestrinin aparılması ilə bağlı texniki imkanın və kommersiya hüquqi şəxslərə dair qeydə alınmış məlumatlardakı sonrakı dəyişikliyin (təsisçi dəyişikliyi) proaktiv olaraq qeydiyyat orqanı tərəfindən qeydiyyata alınması imkanının yaradılması da gündəmdədir. Biznesə başlama sahəsində qaydalar sadələşdirildikdə sahibkarlar üçün yeni stimullar yaranır. Bu isə bütövlükdə ölkəmizdə iqtisadi aktivliyinin daha da yüksəlməsinə təsir göstərir", - DVX-nın rəis müavini qeyd edib.

**Mənbə:**

https://report.az/biznes-xeberleri/azerbaycanda-kommersiya-qurumlarinin-qeydiyyati-istiqametinde-islahatlar-ve-reqemsal-yenilikler-tehlil/

### Digər saytlar və portallar

1. https://vergiler.az/news/taxes/31747.html
2. https://www.azerbaycan24.com/azerbaycanda-kommersiya-qurumlarinin-qeydiyyati-istiqametinde-islahatlar-ve-reqemsal-yenilikler-tehlil/
3. https://nocomment.az/azerbaycanda-kommersiya-qurumlarinin-qeydiyyati-istiqametinde-islahatlar-ve-reqemsal-yenilikler-tehlil/.
4. https://bizcon.az/ru/blog/azerbaycanda-kommersiya-qurumlarinin-qeydiyyati-istiqametinde-islahatlar-ve-reqemsal-yenilikler-tehlil

5. https://avesta.az/66393-azrbaycandakommersiyaqurumlarnnqeydiyyatistiqamtindislahatlarvrqmsalyeniliklr-thll.html
6. https://ritorika.az/az%C9%99rbaycanda-kommersiya-qurumlarinin-qeydiyyati-istiqam%C9%99tind%C9%99-islahatlar-v%C9%99-r%C9%99q%C9%99msal-yenilikl%C9%99r-tehlil/
7. https://far.az/5979-azerbaycanda-kommersiya-qurumlarinin-qeydiyyati-istiqametinde-islahatlar-ve-reqemsal-yenilikler-tehlil.html
8. https://sam.az/az/economy/453809/azerbaycanda-kommersiya-qurumlarinin-qeydiyyati-istiqametinde-islahatlar-ve-reqemsal-yenilikler-tehlil
9. https://sizinxeber.az/economy/biznes/27804-azrbaycanda-kommersiya-qurumlarnn-qeydiyyat-istiqamtind-islahatlar-v-rqmsal-yeniliklr-thlil.html

"Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupunun növbəti iclası

17.09.2024

apa.az

**"Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi" işçi qrupunun növbəti iclası keçirilib**



Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın “Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi” işçi qrupunun geniş tərkibdə növbəti iclası keçirilib.

APA xəbər verir ki, iclasda Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Katibliyi, Ədliyyə Nazirliyinin, Ali Məhkəmənin, Bakı Apellyasiya Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının əməkdaşları, İqtisadiyyat Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Mediasiya Şurasının nümayəndələri və İşçi qrupun digər üzvləri, o cümlədən özəl sektorun nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev İşçi qrupun ötən illərdə kifayət qədər uğurlu fəaliyyət göstərdiyini, 2024-cü il üzrə əsas hədəfləri əhatə edən Yol Xəritəsinin əksər tədbirlərinin artıq icra olunub yekunlaşdığını, bu işlər çərçivəsində əldə edilmiş nailiyyətlərin müvafiq sahədə biznes mühitinə əhəmiyyətli müsbət təsir edəcəyini və özəl sektorun məmnunluğunun artmasına xidmət edəcəyini bildirib.

**Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, İşçi qrupun rəhbəri Toğrul Hüseynov** İşçi qrupun fəaliyyəti

“Mübahisələrin həlli” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.2024-cü il tarixində təsdiq olunub.

nəticəsində əldə edilmiş əsas nailiyyətləri səsləndirib. Qeyd edib ki, elektron məhkəmə sisteminin inkişafı, habelə məhkəmələrin və digər orqanların qərarlarının operativ icrası və effektivliyinin artırılması istiqamətində qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üzrə işlər aparılır. O, həmçinin mediasiyanın rəqəmsallaşdırılması, icra və məhkəmə statistikası ilə bağlı məlumatların açıqlığının təmin edilməsi məqsədi ilə təşkilati tədbirlərin görüldüyünü bildirib.
Qeyd olunub ki, İşçi qrupun və Mediasiya Şurasının birgə fəaliyyəti çərçivəsində mediasiya proseslərinin inkişaf etdirilməsi və rəqəmsallaşdırılması istiqamətində mühüm addımlar atılıb. Vahid Məhkəmə Portalında yaradılmış yeni funksionallıq ilə fiziki və hüquqi şəxslər üçün bütün mediasiya təşkilatları və mediatorlar barədə ətraflı məlumat əldə etmək, habelə istənilən mediatora və mediasiya təşkilatına həmin portal vasitəsilə elektron formada müraciət etmək imkanı yaradılıb. Bununla yanaşı bütün mediasiya təşkilatları “gov.az” ölkə kodlu domenlə təmin edilib.
Mübahisələrə baxılması və qərarların qəbul edilməsinin önəmi ilə yanaşı qəbul olunmuş qərarların icrasının da bir o qədər əhəmiyyət daşıdığı səsləndirilərək beynəlxalq mediasiya barışıq sazişlərinin tanınması və icrası məqsədilə Sinqapur Konvensiyası kimi tanınan “Mediasiya vasitəsilə əldə olunan beynəlxalq barışıq sazişləri üzrə BMT Konvensiyası”nın müzakirəsi üzrə işlərə başlanıldığı bildirilib.
Tədbirdə mübahisələrin həllinin ən rahat və çevik həll yollarından olan arbitraj proseslərinin tənzimlənməsi sahəsində ən son yeniliklər səsləndirilib.
İclasda həmçinin Vahid Məhkəmə Portalı üzrə yaradılmış yeni funksional imkanlar təqdim olunub. Geniş auditoriyanın məhkəmə statistikası sahəsində məlumatlara əlçatanlığının təmin edilməsi məqsədi ilə Portalın “Məhkəmə statistikası” bölməsinin yeniləndiyi, burada məhkəmələr tərəfindən icraata daxil olmuş və həll olunmuş müxtəlif kateqoriyalı kommersiya işlərinin sayı, bitmə əmsalı (clearance rate) və işlərə baxılma müddəti (disposition time) barədə hər bir məhkəmə üzrə müvafiq illəri (rübləri) əhatə edən statistik məlumatlar yerləşdirildiyi qeyd olunub.
İcra sahəsində statistikanın açıqlığının təmin edilməsi məqsədilə icra sənədləri üzrə icra icraatlarının orta müddəti, orta xərcləri və həll olunması vəziyyətini əhatə edən statistik məlumatların Ədliyyə Nazirliyinin rəsmi internet səhifəsində “Hesabatlar” başlığı altında (https://justice.gov.az/categories/2137) yerləşdirildiyi bildirilib.
Tədbirdə həmçinin “Elektron Məhkəmə” informasiya sistemi vasitəsilə elektron qaydada aparılan məhkəmə icraatı üzrə hazırkı vəziyyət, istifadəçi məmnunluğu və qarşıda duran vəzifələr müzakirə olunub.
Bununla yanaşı İşçi qrupun 2024-cü il üzrə əsas hədəflərini əhatə edən yol xəritəsində nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti, hazırlanmış layihələr və görülmüş işlər səsləndirilib. Bildirilib ki, Yol Xəritəsinin icrası çərçivəsində mübahisələrin həlli, icra və məhkəmə sistemi ilə bağlı bir sıra yenilikləri əhatə edən mühüm layihələr hazırlanaraq Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyaya təqdim olunub.
Tədbir iclas iştirakçılarının çıxışları və İşçi qrupun fəaliyyəti ilə bağlı müzakirələrlə davam etdirilib.
**Məlumat üçün qeyd edək ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın “Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi” işçi qrupuna rəhbərliyi Ədliyyə Nazirliyi həyata keçirir.**

**Mənbə:**

https://apa.az/sosial/mubahiselerin-helli-mehkeme-sistemi-ve-huququn-aliliyi-isci-qrupunun-novbeti-iclasi-kecirilib-866682

## Digər saytlar və portallar

1. https://report.az/daxili-siyaset/biznes-muhiti-ve-beynelxalq-reytinqler-uzre-komissiyanin-isci-qrupunun-genis-terkibde-iclasi-kecirilib/
2. https://fed.az/az/diger/quotmubahiselerin-helli-mehkeme-sistemi-ve-huququn-aliliyiquot-isci-qrupunun-novbeti-iclasi-kecirilib-209946

"Mübahisələrin həlli" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.2024-cü il tarixində təsdiq olunub.

3. https://azertag.az/xeber/ischi_qrupun_iclasinda_vahid_mehkeme_portali_uzre_yaradilmis_yeni_funksional_imkanlar_teqdim_olunub-3184238
4. https://xalqqazeti.az/az/last-news/194040

**apa.az**

## Nazir müavini: Mediasiyanın rəqəmsallaşması vaxt itkisinin qarşısını alacaq



Təşkilati tədbirlər çərçivəsində bizim elektron sistəmlərin gücləndirilməsi, əsasən mediasiya prosesinin rəqəmsallaşdırılması, tərəflərin mediasiya prosesinə müraciətinin daha da asanlaşdırılması nəzərdə tutulub.

Bunu ədliyyə nazirinin müavini Toğrul Hüseynov “Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi” işçi qrupunun iclasında deyib. O bildirib ki, ölkəmizin statistik göstəricilərini özündə əks etdirən rəqəmlər vahid məhkəmə sistemində dərc olunur. Yəni, hər bir şəxs daxil olub məhkəmə işlərinin sayı, həll olma əmsalı barədə statistik məlumatları əldə edə bilərlər. Nazir müavini onu da qeyd edib ki, elektron məhkəmə sisteminin inkişafı, habelə məhkəmələrin və digər orqanların qərarlarının operativ icrası və effektivliyinin artırılması istiqamətində qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üzrə işlər aparılır.

**Mənbə:**

https://apa.az/ict/nazir-muavini-mediasiyanin-reqemsallasmasi-vaxt-itkisinin-qarsisini-alacaq-866667

### Digər saytlar və portallar

1. https://xeberler.az/new/details/togrul-huseynov:-mediasiyanin-reqemsallasmasi-vaxt-itkisinin-qarsisini-alacaq--32414.htm
2. https://baku.tv/cemiyyet/mehkeme-sisteminde-hansi-yenilikler-olacaq-edliyye-nazirinin-muavininden-vacib-aciqlama

“Mübahisələrin həlli” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.2024-cü il tarixində təsdiq olunub.

## “Səhiyyə sistemi“ işçi qrupunun iclası

**16.09.2024**

**azertag.com**

### “Səhiyyə sistemi” işçi qrupunun növbəti iclası keçirilib




Biznes mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın “Səhiyyə sistemi“ işçi qrupunun videokonfrans formatında növbəti iclası keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, işçi qrupun sədri, səhiyyə nazirinin müavini Rasim İsmayılovun rəhbərliyi ilə keçirilən iclasda Fəaliyyət Planı üzrə icra edilən fəaliyyətlərin nəticələrinə dair müzakirələr və təhlillər aparılıb. Həmçinin 2024-cü il üzrə Fəaliyyət Planının 6 aylıq hesabatının yekunlarına dair Səhiyyə Nazirliyi və əsas icraçı qurumlar tərəfindən məruzələr dinlənilib.

Görüşdə ümumtəhsil məktəblərində psixoloqların ümumi sayı, bu sahə üzrə statistik göstəricilərə dair məlumatlar verilib. Bundan əlavə, əhalinin sağlamlıq vəziyyətinin yaxşılaşdırılması istiqamətində aparılan tədbirlərin effektivliyinin qiymətləndirilməsi məqsədilə 2023-cü il və 2024-cü ilin 6 ayı ərzində reabilitasiya xidmətləri üzrə statistikaya dair məlumatlar işçi qrup üzvlərinə təqdim edilib.

İclasın sonunda işçi qrup üzvlərinə müvafiq tapşırıqlar verilib.

**Mənbə:**

“Səhiyyə sistemi” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 08.02.2024-cü il tarixində təsdiq olunub.

https://azertag.az/xeber/sehiyye_sistemi_ischi_qrupunun_novbeti_iclasi_kechirilib-3181214

## Digər saytlar və portallar

1. https://sia.az/az/news/health/1188792.html